# *Paşinyan:* "Ermənistan Türkiyə ilə Azərbaycan arasında tranzit yükdaşımaları təmin etməyə hazırdır"

**"Ermənistan elə bu gün Maraqara və Kornidzor keçid məntəqələrindən Türkiyə ilə Azərbaycan arasında tranzit yükdaşımaları təmin etməyə hazırdır".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Ermənistanın Baş naziri Nikol Paşinyan İrəvanda təhlükəsizlik məsələlərinə həsr olunan konfransda çıxışında deyib. O bildirib: "Mən bu sözləri ona görə bəyan edirəm ki, biz buna hazırıq".

N.Paşinyan diqqətə çatdırıb ki, "Tramp marşrutu" Ermənistan ilə Birləşmiş Ştatların birgə yaradacağı şirkət tərəfindən idarə olunacaq. Buna baxmayaraq, şirkətdə əsas həlledici rol Ermənistana məxsus olacaq.



Ermənistanın Baş naziri, həmçinin qeyd edib ki, "Tramp marşrutu"nun Amerikaya 49 və yaxud 99 ilə icarəyə verilməsi məsələsi nəzərdən keçirilir. İcarənin müddəti ABŞ-nin buraya yatıracağı sərmayənin həcmindən və layihənin gəlirindən asılı olacaq.

Azərbaycan.- 2025.- 15 noyabr (№ 243).- S.10.